# Zəfər tarixinin xronologiyası

## 30 sentyabr 2020-ci il

**Həmin gün:**

–Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Söhbət zamanı Ermənistanın Azərbaycana qarşı apardığı təxribatlar pislənilib;

–Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Ermənistanın işğalçılıq siyasəti yürütməsi ilə bağlı Anadolu agentliyinə müsahibə verib;

–Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər.

***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirib ki, bizim döyüşlərdə yaralanan bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşlarını davam etdirsinlər: “Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar”.

Dövlətimizin başçısı çıxışında Azərbaycan hərbçilərinin xilaskar olduqlarını, öz torpaqları uğrunda vuruşduqlarını, erməni əsgərlərinin isə başqa dövlətin torpağında – Azərbaycan torpağında öldüklərini qeyd edib: “Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik...”.

***

Azərbaycan Ordusunun Ermənistan silahlı birləşmələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları vətəndaşlarımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırıb. Bu, Azərbaycan vətəndaşlarının Prezident, Ali Baş Komandan İlham Əliyevə göndərdiyi təbrik və təşəkkür məktublarından da aydın görünür. Azərbaycan vətəndaşları ilə yanaşı, Türkiyə vətəndaşları da dövlətimizin başçısına göndərdikləri məktublarda sevinc hisslərini bölüşürlər.

Masallı rayonundan istefada olan polis polkovnik-leytenantı Tofiq Şahmarov yazır: “Cənab Ali Baş Komandan, biz - Masallı rayon polis şöbəsi üzrə bütün polis veteranları sıravi əsgər kimi Sizin ətrafınızda olmaqla müharibəyə cəlb olunmağımıza dair Sizin əmrinizi səbirsizliklə gözləyirik. Vətən eşqi bizim üçün çox ülvi və müqəddəsdir. Daim Sizinləyik”.

Şirvan şəhərindən Səbinə Əliyeva: “Hörmətli cənab Prezident, mən Əliyeva Səbinə I qrup gözdən əliləm. Ailəliyəm, 3 körpə övladım var. Gözlərimin görməsi üçün valideynlərimin Mehriban xanım Əliyevaya müraciəti əsasında dəfələrlə əməliyyat olundum. Görmə qabiliyyətim qismən bərpa olunduğuna görə çox sevinirəm. Çox sağ olun ki, Siz və Mehriban xanım hər bir azərbaycanlıdan, o cümlədən məndən bu qayğını, bu sevgini əsirgəmirsiniz. Qarabağımız uğrunda gedən döyüşlərdən, ilkin qələbəmizdən mən də fərəhlənirəm. Rəşadətli Ordumuzun gücünə və qüdrətinə inanıb gur səslə deyirəm: "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".



***

Sentyabrın 30-da Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda isə bildirilir ki, işğal olunan torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda ordumuzun apardığı qətiyyətli əks-hücum əməliyyatı uğurla davam edir. Ordumuzun şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji vəziyyəti yüksəkdir. Döyüşlərdə hər bir əsgər və zabitimiz əsl qəhrəmanlıq nümayiş etdirir. Azərbaycan Ordusunun apardığı döyüşlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çox sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikaları məhv edilir.

Müdafiə Nazirliyinin yaydığı məlumatdan:

– Sentyabrın 29-dan 30-na keçən gecə, saat 00:20 radələrində Azərbaycan Ordusunun İsrail istehsalı Harop dağıdıcı dronu vasitəsilə dəqiq zərbəsi nəticəsində yüksək rütbəli erməni zabitlərinin toplaşdığı bunker dağıdılıb. Bunkerdə Ermənistan silahlı qüvvələrinin bir generalı, bir neçə polkovniki və digər yüksək rütbəliləri olub;

– Cəbrayıl rayonu ərazisindəki tanklar da daxil olmaqla, bir neçə erməni hərbi texnikası məhv edilib;

– Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutmuşdur. Atəş nəticəsində dövlət qurumlarının inzibati binalarının yaxınlığına top mərmisinin düşməsi nəticəsində 7 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, o cümlədən, mülki infrastruktur obyektlərə külli miqdarda ziyan vurulub;

– Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından təcili surətdə köməyə gələn ehtiyat qüvvə Azərbaycan Ordusu tərəfindən məhv edilib;

– cəbhənin Ağdərə-Tərtər istiqamətində mühasirəyə alınan erməni qüvvələri artilleriya vasitələri ilə məhv edilib;

– cəbhənin müxtəlif istiqamətlərində Ermənistan Silahlı Qüvvələrinin 1 ədəd “Uraqan” yaylım atəşli reaktiv sistemi, 2 ədəd “9K33 Osa” zenit-raket kompleksi, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını, 4 ədəd “D-20” haubitsa-topu, 16 ədəd tank və şəxsi heyətlə 2 ədəd yük maşını sıradan çıxarılıb.

– Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağ atıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib.

***V.BAYRAMOV, “Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 30 sentyabr.- S.7.